# "Hadrut, sən azadsan!" sənədli filminin təqdimatı olub











Nizami Kino Mərkəzində "Hadrut, sən azadsan!" sənədli filminin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, filmin təqdimat mərasimində Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Müdafiə Nazirliyinin kollektivi, mədəniyyət və incəsənət xadimləri və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən Bakı Media Mərkəzinin direktoru Orman Əliyev bu cür filmlərin ərsəyə gəlməsinin torpaqların qaytarılmasından sonra mümkün olduğunu vurğulayıb, şanlı Qələbənin Azərbaycan əsgəri başda olmaqla Prezident, Ali Baş Komandan İlham Əliyevin sayəsində qazanıldığını diqqətə çatdırıb.

"Bakı Media Mərkəzinin 10 yaşı tamam olur. Bu illər ərzində biz bir çox filmlər ərsəyə gətirmişik. Bundan öncə hazırladığımız "Şuşa, sən azadsan!" filminə yalnız Bakı Media Mərkəzinin sosial şəbəkə səhifələrində 900 mindən çox baxış olub. Biz bundan sonra da əlimizdən gələni edəcəyik ki, bu mövzuda bir çox filmlərə imza ataq", - deyə Orman Əliyev əlavə edib.

Ekran əsəri Mədəniyyət Nazirliyi yanında Azərbaycan Respublikası Kino Agentliyinin sifarişi ilə Bakı Media Mərkəzi və "Azərbaycanfilm" kinostudiyası tərəfindən istehsal edilib. Filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, ssenari müəllifi Rasim İsmayılov, quruluşçu rejissoru Cavidan Şərifov, quruluşçu operatorları Ziya Babayev və Əli Əliyevdir.

Filmdə 2020-ci ilin 44 günlük Vətən müharibəsinin parlaq səhifələrindən olan Xocavənd rayonunun Hadrut qəsəbəsinin düşmən işğalından azad olunması (9 oktyabr) əməliyyatından bəhs edilir. Burada "Dəmir yumruq" əməliyyatının əsas həlqəsi sayılan qəsəbənin azad olunması planının unikal formada təşkil edilməsi və uğurla həyata keçirilməsi öz əksini tapıb.

Filmdə əməliyyata qərar verilməsindən, əməliyyatın sona çatmasına qədər proseslər bütün detallarına qədər real olaraq canlandırılıb. Çəkilişlər əməliyyatın keçirildiyi məkanlarda aparılıb və məhz həmin döyüşlərdə birbaşa iştirak etmiş döyüşçülər filmdə yer alıb. Film boyu real döyüş kadrları ilə bərabər, bütün qoşun növlərinin, əsasən də xüsusi təyinatlıların aparıcı rol oynadığı hərbi proseslərdə təkrarolunmaz hərbi fəndlər, döyüş səhnələri imitasiya olunaraq lentə alınıb.

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 23 dekabr, № 281.- S.9.